**Siyasi məhbuslar COP29 öncəsi aclığa başlayıblar**

Azərbaycan Xalq Cəbhəsi Partiyasının (AXCP) Salyan rayon təşkilatının sədri, siyasi məhbus Zamin Salayev oktyabrın 30-da saxlanıldığı Penitensiar Xidmətin Müalicə müəssisəndə aclığa başlayıb[1]. O COP29 konfransı ərəfəsində siyasi məhbus kimi tanınan şəxslərin azadlığa buraxılmamasına etiraz edib.

Onun səhhəti ağır olduğundan Penitensiar Xidmətin Müalicə müəssisəsinə köçürülüb.

Ailəsi bildirib ki, Zamin Salayevin ürəyində və qara ciyərində ciddi problemlər var. Təngənəfəs olur, nəfəs ala bilmir, ayaqları şişib, yeriyə bilmir.

Zamin Salayev 2023-cü il fevralın 7-də saxlanılıb.

O, Cinayət Məcəlləsinin 221.3-cü maddəsi (xuliqanlıq - silahdan və ya silah qismində istifadə olunan əşyalardan istifadə edilməklə zərər çəkmiş şəxsə zor tətbiq olunması) ilə təqsirli bilinib. 2023-cü il mayın 22-də Qaradağ Rayon Məhkəməsi hakim Rufan Mürsəlovun sədrliyi ilə Zamin Salayevin 4 il azadlıqdan məhrum edilməsi barədə hökm çıxarıb.

Salayev həbsinin sifariş olduğunu hesab edir və bundan öncə məhkəmə hökmünə etiraz olaraq aclıq edib.

Xeberman.com saytının həbsdə olan rəhbəri, jurnalist Polad Aslanov da COP29 konfransı ərəfəsində siyasi məhbusların azad edilməsi tələbilə Bakıdakı 1 saylı Cəzaçəkmə Müəssisəsində aclığa başlayıb. Həmin Cəzaçəkmə Müəssisəsində saxlanılan daha iki məhbus - Vəli Yaqubov və Ramal Hüseynov Polad Aslanovun aclıq aksiyasına qoşulublar.[2]

Polad Aslanov aclıq elan edəndən sonra onu 1 saylı Cəzaçəkmə Müəssisəsindən 15 saylı Cəzaçəkmə Müəssisəsinə köçürüblər. [3] Həyat yoldaşı bildirib ki, həmin Cəzaçəkmə Müəssisəsində şərait daha pisdir.

Polad Aslanovun 15 saylı Cəzaçəkmə Müəssisəsinə köçürüldükdən sonra cəza kamerasına ("karser") salındığı bildirilir. Bu barədə onun həyat yoldaşı Gülmira Aslanova məlumat yayıb.

“Penitensiar Xidmətdən mənə bildirdilər ki, Polad "karser"ə salınıb. Onlar bunu Poladın aclıq etməsi və təcrid edilməli olması ilə izah ediblər, sanitariya hissəsində yer olmadığına görə isə onun karserə salındığını bildiriblər. Əslində onu sadəcə olaraq cəzalandırıblar", deyə Aslanova yerli mediaya bildirib.

Noyabrın 6-da səhər o, həyat yoldaşının vəziyyətini öyrənmək üçün Cəzaçəkmə Müəssisəsinə gəlib. Onun sözlərinə görə, ona əri ilə görüşə, telefon söhbətinə icazə verilməyib.

Polad Aslanov 12 iyun 2019-cu ildə İranın xeyrinə casusluq ittihamı ilə - Cinayət Məcələsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham olunub. O, 16 il azadlıqdan məhrumetmə cəzasına məhkum edilib.

---

[1] https://www.amerikaninsesi.org/a/7845909.html

[2] https://turan.az/en/politics/polad-aslanov-starts-hunger-strike-demanding-release-of-political-prisoners-786509

[3] https://turan.az/en/politics/polad-aslanov-forcibly-transferred-to-penitentiary-service-hospital-786558

Aslanov bütün ittihamları təkzib edir, xüsusi xidmət əməkdaşları arasında korrupsiya faktlarını ifşa etdiyinə görə təqib olunduğunu bildirir.

Hüquq müdafiəçiləri onu siyasi məhbus kimi tanıyıb.

Beynəlxalq təşkilatlar Aslanovun həbsini pisləyib və onu azad etməyə çağırıblar.

Sonradan Ali Məhkəmə Aslanovun həbs müddətini 13 ilə qədər azaldıb.

**Səhhətində problem olan siyasi məhbusların məsələsinə dövlət laqeyd yanaşır**

Vəkillər və ictimai müdafiəçiləri hazırda həbsdə olan Seçkilərin Monitorinqi və Demokratiyanın Tədrisi (SMDT) Mərkəzinin rəhbəri, siyasi məhbus Anar Məmmədlinin səhhəti ilə bağlı həyəcan təbili çalır.

Vəkil Cavad Cavadov aidiyyatı qurumlardan insanın səhhəti ilə bağlı məsələyə biganə yanaşmamağı xahiş edir.[4]

Oktyabrın əvvəlində vəkilləri Bakı İstintaq Təcridxanasında Anar Məmmədli ilə görüşəndə o bildirib ki, səhhətində olan çoxsaylı problemlər artıq onu ciddi narahat etməyə başlayıb və əsaslı müayinəyə ehtiyacı var.

Vəkillər bu məsələ ictimailəşdiriməklə yanaşı müvafiq dövlət instansiyalara müraciət etmək qərarına gəliblər.

“Elə həmin gün tərəfimdən Anarın özünün yazdığı dəst-xətti ilə ərizəni Ədliyyə Nazirliyinin Tibb Baş İdarəsindən tutmuş Penitensiar Xidmət, Daxili İşlər Nazirliyi, Ombudsmana göndərdim. Xahiş etdik ki, onun əsaslı müayinəsi mülki xəstəxanada aparılsın. (bura ultrasəs müayinəsindən tutmuş digər zəruri analizlər daxildir). Onun səhhətində açıqlamasını istəmədiyimiz ciddi narahatedici məqamlar var. Müraciətlərdən bir gün sonra digər vəkil Elçin Sadıqov Anarla görüşüb və bu müraciətlə bağlı onunla ümumiyyətlə maraqlanan olmadığını öyrənibdir. Bu səbəbdən bunu publik yazmaqdan başqa yolumuz qalmadı”, vəkil Cavad Cavadov qeyd edib.

Vəkil deyir ki, Anar Məmmədli həkim olan ailə üzvlərindən onu narahat edən məsələ ilə bağlı müalicə yazılmasını istəyib.

Vəkil hesab edir ki, çevik olan məsələlərdə bürokratik əngəllər yaradılır.

“Məhbus və məhkumların tibbi təminatı Ədliyyə Nazirliyi tərəfindən Penitensiar Xidmətin səlahiyyətlərindən çıxarılıb və Tibb Baş İdarəsinə həvalə edilib. Beləliklə çevik həll edilməli olan məsələdə çox böyük bürokratik əngəllər yaranır. Bu məsələ öz həllini tapmalıdır”, Cavad Cavadov əlavə edib.

[4] https://turan.az/en/politics/state-bodies-not-responding-to-deteriorating-health-of-anar-mammadli-785810

Vəkillər bu məsələ ilə bağlı məhkəməyə müraciəti də nəticəsiz qalıb. [5]Belə ki, Bakı Apellyasiya Məhkəməsində Anar Məmmədlinin mülki xəstəxanada müayinə olunması ilə bağlı məhkəmə nəzarəti qaydasında vəkillərin verdiyi şikayətə baxıb və təmin etməyib.

Qeyd edək ki, şikayət Xətai rayon Məhkəməsi tərəfindən geri qaytarılmışdır.

Anar Məmmədli məhkəmə iclasında iştirak edib. O bildirib ki, ağrıdan dayana bilmir, səhhətində ciddi problemləri var. Adekvat müayinə və müalicə almır. Hətta konvoy taborundan onu mümkün qədər tez Bakı İstintaq Təcridxanasına qaytarılmasını xahiş edib.

Anar Məmmədli aprelin 29-da saxlanılıb. Aprelin 30-da ona qarşı Cinayət Məcəlləsinin 206.3.2-ci (qaçaqmalçılıq - qabaqcadan əlbir olan bir qrup şəxs tərəfindən törədildikdə) maddəsi ilə ittiham irəli sürülüb.

Bir sıra beynəlxalq təşkilatlar, həmçinin ABŞ Dövlət Departamenti, ABŞ Səfirliyi Azərbaycan hökumətini Anar Məmmədli və digər həbs edilən şəxsləri dərhal azad etməyə çağırıb.

Anar Məmmədli Azərbaycanda seçki hüququ sahəsində ixtisaslaşmış qeyri-hökumət təşkilatının rəhbəridir. O, seçkilərlə bağlı tənqidi hesabatların müəllifidir.

Anar Məmmədli bundan öncə 2013-cü il dekabrın 17-də həbs olunub. O, vergidən yayınma və vəzifə səlahiyyətlərindən sui-istifadə edərək, seçki və referendumun nəticələrini saxtalaşdırmaqda ittiham olunub.

Bakı Ağır Cinayətlər Məhkəməsi Anar Məmmədlini 5 il 6 ay müddətinə azadlıqdan məhrum edib. Məmmədli itiihamı qəbul etməyib və Amnesty International təşkilatı tərəfindən vicdan məhbusu elan edilib.

Anar Məmmədli 2014-cü il sentyabrın 29-da Avropa Şurasının Parlament Assambleyasının (AŞPA) payız sessiyasında Vatslav Havel mükafatına layiq görülüb.

Siyasi məhbus, ictimai fəal, I qrup əlil Famil Xəlilovun ayaqları tutulub. [6]Bu barədə onun həyat yoldaşı yerli mediaya məlumat verib.

“Familin ayaqlarında üyüşmələr artıb. O hərəkət edə bilmir. 36 kiloqram çəki itirib, indi çəkisi 82 kiloqramdır (təcridxanaya daxil olan 118 kiloqram olub). Həkimlər ondan qan analizi götürüblər” - deyə, oktyabrın 29-da 1 saylı Bakı İstintaq Təcridxanasının sanitar-tibb hissəsində saxlanan ictimai fəalla görüşündən sonra həyat yoldaşı Kiçikxanım Xəlilova bildirib.

Onun sözlərinə görə, Famil Xəlilov mədəsində və başında kəskin ağrılardan əziyyət çəkir. Bununla yanaşı, Famil Xəlilov aclığı sonadək davam etdirəcəyini bildirib.

Vəkil Bəhruz Bayramov deyib ki, ağır durumda olmasına baxmayaraq, Famil Xəlilovun məhkəməsi COP29-dan sonraya, noyabrın 28-dək təxirə salınıb.

Fəal Famil Xəlilov qanunsuz həbsinə etiraz olaraq aclıq aksiyası edir.

---

[5] https://turan.az/en/politics/anar-mammadli-denied-examination-in-civilian-clinic-786432

[6] https://turan.az/en/politics/activist-on-hunger-strike-in-detention-has-lost-his-legs-786264

Famil Xəlilov əvvəllər həyatı ilə bağlı təhlükə hiss etdiyindən 2015-ci ildə İsveçə mühacirət etməyə məcbur olduğunu bildirib, 8 ilə yaxın həyat yoldaşı və uşaqları ilə orada yaşayıb və 2023-cü ildə Azərbaycana readmissiya olunub.

Bu il mayın 2-də saxlanılan Xəlilova qarşı Cinayət Məcəlləsinin 234.4.3-cü (satış məqsədilə küllü miqdarda narkotik hazırlama, daşıma, saxlama) maddəsi ilə ittiham irəli sürülüb. Fəal barəsində həbs qətimkan tədbiri seçilib. Bu maddədə 5 ildən 12 ilədək həbs cəzası nəzərdə tutulub.

Yaxınları onun təqsirsiz olduğunu, sosial şəbəkələrdəki paylaşımlarına görə cəzalandırıldığını deyirlər.

Fəalın həyat yoldaşı Kiçikxanım Xəlilova bildirir ki, Xəlilov sosial şəbəkələrdə aktiv olduğu, insanların haqqını tələb etdiyi üçün həbs olunub.

Avqustun 29-da Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Tağıyevin sədrliyi ilə Xəlilovun cinayət işi üzrə məhkəmə başlayıb.

Qolları serebral iflic olan Famil Xəlilov məhkəmədə əlləri parça ilə arxadan bağlı şəkildə iştirak edir. Çünki onun qolları o qədər bərk əsir ki, ayaq üstə müvazinətini saxlaya bilmir.

Bakı İstintaq Təcridxanasında saxlanılan "Toplum TV"nin təsisçisi, media üzrə ekspert Ələsgər Məmmədlinin səhhətindəki ciddi problemlər qalır. [7]

Ələsgər Məmmədli oktyabrın 25-də yenidən təcridxanada ultrasəs müayinəsindən keçiriblər. Müayinə zamanı böyrəyində yenidən daşlar aşkarlanıb. Mədəaltı vəzi və qaraciyərində böyümələr aşkar olunub.

Ələsgər Məmmədlinin qardaşı Nəsimi Məmmədli deyib ki, Ələsgər Məmmədlinin qalxanabənzər vəzindəki tiroid düyünlər də öz böyük ölçüsünü saxlayır.

“Həkim bildirib ki, qalxanabənzər vəzindəki düyünlər mütləq cərrahi əməliyyatla götürülməldiir. Amma təcridxanada cərrahi əməliyyatın aparılması üçün şərait yoxdur. Çünki o yüksək dəqiqlik tələb edən cərrahi prosesdir”, o əlavə edib.

Onun sözlərinə görə, Ələsgər Məmmədlinin ev dustaqlığına buraxılması yenidən məhkəməyə müraciət olunacaq.

Martın 6-8-də "Tolum TV" və onun tərəfdaş təşkilatı Demokratik Təşəbbüslər İnstitutunun 9 əməkdaşı saxlanılıb. Onlar xarici valyuta qaçaqmalçılığında ittiham olunurlar. Yeddi nəfər barədə həbs qətimkan tədbiri seçilib, iki nəfər isə polisin nəzarətinə verilib.

"Toplum TV"nin təsisçisi Ələsgər Məmmədli də valyuta qaçaqmalçılığında ittiham olunur.

---

[7] https://turan.az/en/politics/alaskar-mammadlis-health-deteriorates-in-detention-center-786340